UOT 336.4 (479.24)

# DÜNYA ÖLKƏLƏRİNDƏ REGİONLARIN İQTİSADİ İNKİŞAFININ MÜQAYİSƏLİ TƏHLİLİ VƏ PERSPEKTİV İMKANLARI

**K.Y.EYYUBOV**
***Bakı Dövlət Universiteti***
***kamran.eyyubov@bsu.az***

*Məqalədə Şərqi Avropa və Müstəqil Dövlətlər Birliyində tətbiq edilən Dövlət Proqramlarının bu ölkələrin sosial-iqtisadi inkişaflarındakı rolu təhlil edilir. Xarici investisiyalar, regional inkişaf, yoxsulluğun azaldılması və təhsilin inkişafına dair Dövlət Proqramlarının iqtisadi inkişafa təsirləri detallıqla təhlil edilir. Bu proqramlar keçmiş kommunist ölkələrinin kapitalizmə keçidini sürətləndirmiş və iqtisadi inkişafa nail olmaları üçün əlverişli şərait yaratmışdır. 90-cı illərdə iqtisadi durum arasında çox böyük fərqlər mövcud idi.*

**Açar sözlər:** Dövlət Proqramları, iqtisadi inkişaf, MDB iqtisadiyyatı, makroiqtisadi sabitləşmə, Şərqi Avropa iqtisadiyyatı, işsizlik, təhsil proqramları, regional inkişaf

İqtisadi inkişafla bağlı bir çox nəzəriyyələr mövcuddur. Bu nəzəriyyələr iqtisadi inkişafa nail olmaq üçün müxtəlif təklifləri irəli sürür [6, 9, 10]. Bu strategiyalar arasında regional inkişafla bağlı nəzəri-metodoloji yanaşmalar daha çox diqqəti cəlb edir. Ölkə iqtisadiyyatının bir şəhər və ya rayon üzrə təmərküzləşməsi burada baş verə biləcək hər hansı bir iqtisadi şatinlik zamanı bütün ölkənin problemlərlə üzləşəcəyi deməkdir. Bu baxımdan regional inkişaf ölkənin ümumi inkişafında mühüm mövqeyə malikdir. Regional inkişaf iqtisadiyyatın şaxələnməsi, onun müəyyən şəhər və ya rayondan asılılığının azalması və sağlam bazar iqtisadiyyatının yaranması deməkdir. Bir çox inkişaf etmiş ölkələr regional inkişafa mühüm əhəmiyyət verirlər. Məsələn, ABŞ-da Nyu-York, Filadelfiya, Boston, Çikaqo və s. şəhərlərdə həyat səviyyəsi paytaxt Vaşinqtondan yaxşıdır [28]. Sağlam həyat tərzinin təmin edilməsində regionlar üzrə bərabər inkişaf vacibdir. Eyni zamanda ölkə əhalisinin sosial rifahının ədalətli olması bu proseslərdən asılıdır.

20-ci əsrin sonlarında inkişaf etməkdə olan dövlətlər də regional inkişafa əhəmiyyət verməyə başladılar. Regional inkişaf yeni iş yerləri yaradılmalı, yeni iqtisadi perspektivlər və sağlam iqtisadi gələcəyə doğru istiqamətdir. Bu ölkələrin təcrübəsinin öyrənilməsi Azərbaycan Respublikasında həyata

keçirilən Dövlət Proqramlarının qiymətləndirilməsində vacibdir. Belə ki, Azərbaycan özü də bu kateqoriyalı dövlətlər arasına daxildir. İnkişaf etmiş ölkələr ilə Azərbaycanın regional inkişafının müqayisə edilməsi məqsədəuyğun deyil, çünki həmin dövlətlər artıq oturuşmuş iqtisadi struktura malikdirlər və onların iqtisadi inkişafları struktur və mahiyyət baxımından digər formalara malikdir. İnkişaf etməkdə olan ölkələrin, MDB və Şərqi Avropa ölkələrinin iqtisadi inkişafla bağlı Dövlət Proqramlarının öyrənilməsi Azərbaycandakı müvafiq proqramlarla bağlı elmi-tədqiqat işlərinin əhəmiyyətini daha da artıracaqdır. Elə məhz bu baxımdan, regional iqtisadi inkişafla bağlı dünya ölkələrinin təcrübəsi Avropanın keçmiş kommunist ölkələrinin təcrübəsi əsasında öyrəniləcəkdir.

Dəmir Divarın çökməsi və kommunizmin Avropada süquta yetirilməsi ilə dünya arenasına yeni-yeni ölkələr daxil oldu. Bu dövlətlər öz iqtisadi və siyasi dəyişikliklərinin formaları etibarilə fərqlənsələr də, onların islahatlar proqramları oxşar idi [16]. Bu proqramlar çox zaman makroiqtisadi sabitləşdirmə, özəlləşdirmə, liberallaşdırma, azad rəqabət və əmək bazarının restrukturizasiyasını əhatə edirdi [25]. İqtisadi transformasiya proqramları MDB və Şərqi Avropa ölkələrində uzun müddət davam etmiş proses idi. Keçid dövrünün tamamlanması ilə yuxarıda qeyd olunan ölkələrin bir çoxu özünün yeni iqtisadi doktrinasına başladı. Bu iqtisadi doktrinalar çox zaman ölkəyə xarici investisiya qoyuluşunu nəzərdə tutan regionda inkişafla bağlı, yoxsulluğun azaldılması, təhsili və elmi gücləndirməyə yönəlik proqramlar idi. Onu da qeyd etmək vacibdir ki, iqtisadi inkişafla bağlı bir çox nəzəri-metodoloji yanaşmalar mövcuddur, lakin yuxarıda qeyd olunan 4 istiqamətin seçilməsi təsadüfi deyildir. Bu 4 istiqamət cəmiyyətin həyatında malik olduğu yüksək səviyyədə vacibliyə görə seçilmişdir. Ölkə əhalisinin həyat səviyyəsi iqtisadiyyatın sənaye üzrə təmərküzləşməsindən əhəmiyyətli dərəcədə asılıdır [19]. Yuxarıda qeyd etdiyimiz 4 kateqoriya iqtisadiyyatın sənayeləşdirilməsi istiqamətində mühüm önəmə malikdirlər. Mərkəzi Avropa və MDB ölkələrinin Dövlət Proqramları müəyyən qədər fərqlənsə də, bu proqramların həmin ölkələrin iqtisadi inkişaflarındakı rolu danılmazdır. Onu da qeyd etmək məqsədəuyğundur ki, kommunizmdən kapitalizmə keçmiş Avrasiya dövlətləri keçidin tamamilə təmin olunması məqsədilə öz iqtisadiyyatlarına uyğun Dövlət Proqramlarını seçmişdirlər.

Şərqi Avropa ölkələrinin iqtisadi inkişafla bağlı Dövlət Proqramlarını daha dərindən başa düşmək məqsədilə təyin edilmiş kateqoriyaların hər birinə ayrı-ayrılıqda baxılması labüddür. Qeyd etdiyimiz faktorlardan ilkini ölkə ərazisinə xarici investisiyaların cəlbi ilə bağlı Dövlət Proqramlarıdır. SSRİ-nin Şərqi Avropanın keçmiş sosialist iqtisadiyyatlarını böyük ölçüdə 1980-cı illərə qədər subsidiyalar ilə təmin etməsi bu ölkələrin iqtisadi, siyasi və sosial həyatında mühüm iqtisadi faktor idi [17]. Böyük həcmli subsidiyaların kommunist ölkələrə verilməsi SSRİ iqtisadiyyatının neft və qazın satışından əldə etdiyi böyük gəlirlər nəticəsində mümkün olmuşdur. Sovetlər İttifaqı öz siyasi

mənafelərinə uyğun Şərqi Avropanın kommunist partiyalarına dəstək olurdular. Bu iqtisadi yardımlar siyasi ehtiyacdan doğurdu. SSRİ Şərqi Avropanın siyasi rejimlərini əldə saxlamaq və idarə etmək istəyirdi. İqtisadi yardımlar bu məqsədin əldə olunmasında vacib determinant rola malik idilər. 1980-cı illərin axırlarına doğru dünya bazarlarında neftin qiymətinin azalması ilə SSRİ-nin öz müttəfiqlərinə etdikləri maliyyə və iqtisadi yardımlar artıq mümkün deyildi. Sosial-iqtisadi vəziyyətdəki bu dəyişikliklik Avropa qitəsində kommunizmin süquta yetməsində vacib faktorlardan biri idi. Dünyanın siyasi xəritəsində yeni müstəqil ölkələrin yaranması ilə eyni zamanda iqtisadi müstəqilliyin rolu artmağa başladı və o, ölkənin siyasi həyatında mərkəzi mövqəyə malik oldu. Bunlarla yanaşı qeyd etmək vacibdir ki, Şərqi Avropa ölkələri təbii ehtiyyatlarla zəngin olmadıqları halda, MDB ölkələrində bir çox önəmli neft, təbii qaz və metal ehtiyyatları mövcud idi. Bu ölkələrin təbii mineral ehtiyyatlarında olan fərqləri onların xarici təsirlərə olan münasibətləri ilə oxşar deyildi. Belə ki, yenicə kapitalist idarə formasına keçmiş ölkələrin bir çoxu ölkə iqtisadiyyatının inkişafında xarici təsir amilinə müsbət baxırdı. Birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatına cəlbi keçmiş kommunist ölkələrinin iqtisadiyyatlarına yeni nəfəs verilməsinə mühüm təsir göstərirdi [14, 436-439].

Xarici investisiyaların cəlbi iqtisadiyyata müsbət təsir edən əlavə amillərdəndir. Ölkə iqtisadiyyatının inkişaf səviyyəsindən asılı olmayaraq, ölkəyə xarici investisiyaların cəlbi əlavə maliyyə resurslarıdır ki, bu da iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. 90-cı iilərin əvvələrindən Mərkəzi və Şərqi Avropa dövlətləri öz bazarlarını xarici şirkətlərə və fərdlərə açmışlar. Qərbi Avropa dövlətləri bu yeni bazarlarda investisiya qoyuluşunda bir neçə faktora əsasən maraqlı idilər. Bu faktorlar arasında yenicə yaranmış demokratiyaların Rusiyanın avtokrat nəzarətindən uzaqlaşdırmaq, öz ölkələrində fəaliyyət göstərən iqtisadi subyektlərə yeni perspektivlər açmaq və öz iqtisadiyyatlarına impuls verməkdən ibarət idi [18]. Şərqi Avropanın keçmiş kommunist ölkələri də öz növbələrində Rusiyadan olan asılılıqlarını azaltmaq məqsədilə bu iqtisadi əlaqələrə üstünlük verməyi vacib sayırdılar. MDB ölkələri isə xarici təsirə başqa cür yanaşırdılar. Onlar Rusiyanın dominantlığından Şərqi Avropa dövlətləri kimi asanca ayrıla bilmirdilər və birbaşa xarici investisiyaları iqtisadiyyatın gücləndirilməsi üçün alırdılar. Burada siyasi motivasiya, iqtisadi motivasiyadan qat-qat geri qalırdı. Xarici investisiyaların çoxluğu və onlara yaradılmış münbit şərait daha çox Azərbaycanın və Qazaxıstanın neft sektorlarında mövcud idi. Bu dövləti BP, CHEVRON, EXXON, TOTAL və digər neft sektorunun böyük firmalarından invesitisiyaları cəlb edə bilmişdirlər [20, 26]. Bu ölkələr nəhənq neft sektorlarına xüsusi məqsədli vasitələr (Special Purpose Vehicles) çərçivəsində əməkdaşlıq təklif etmişlər. Bu çərçivə investisiya olunacaq ölkələri həmin firmalar üçün daha da münasib və maraqlı etmişdir. Şərqi Avropa ölkələri isə bazar iqtisadiyyatının liberallaşdırması prinsiplərindən xarici investisiyaların cəlbi zamanı geniş istifadə etmişlər. Belə ki, bu ölkələrin təbii resursları

məhdud olduğunda onlar öz iqtisadiyyatlarını xarici invesitisiyala cazibədar etmələri üçün mümbit bazar iqtisadiyyatı şəraitinin yaradılması vacib idi. Onu da qeyd etmək vacibdir ki, iqtisadi inkişaf üçün lazımi resurslar yeni kapitalist ölkələrində mövcud deyildi. Çətin iqtisadi şərait həmin dövlətləri digər dövlətlərdən investisiyaların cəlb edilməsində aqressiv siyasət yürütməyi məcbur edirdi. Yəni hakimiyyət digər dövlətlər və oradakı firmalarla birbaşa əlaqə yaratmaqda maraqlı idi və bu istiqamətdə məqsədyönlü fəaliyyət həyata keçirirdi. Ümumiyyətlə, keçmiş kommunist ölkələri xarici investisiyaları iqtisadi inkişafa təkan verən bir amil kimi görürdülər və bu istiqamətdə məqsədyönlü fəaliyyət ilə məşğul olurdular. Böyük həcmli birbaşa xarici investisiyalar sosialist iqtisadiyyatların kapitalizmə keçidini sürətləndirmiş və müsbət təsir etmişdir.

Keçmiş kommunist dövlətlərin iqtisadi dəyərlər arasında mərkəzi mövqeylərdən birini regional inkişaf təşkil edirdi. Urbanizasiya böyük əhəmiyyət kəsb edən iqtisadi və coğrafi anlayışdır [4]. Bu istiqamətdə fəaliyyət hər zaman iqtisadi siyasətdə mərkəzi mövqelərdən birini tutur. Kənd əhalisi ilə şəhər əhalisi arasında olan fərqlər mövcuddur. Bu fərqin iqtisadi inkişafda olan əhəmiyyəti də dünya alimlərinə tanışdır [12]. İnkişaf etmiş ölkələrdə kənd və şəhər əhalisi arasındakı fərq inkişaf etməkdə olan ölkələrlə müqayisədə daha azdır. Kommunzmin Avropada süquta yetməsindən öncə SSRİ və Şərqi Avropa dövlətləri urbanizasiya və regional inkişaf sahələrində böyük nəaliyyətlər əldə edə bilmişdirlər. Bunların əsasında kommunizm ideologiyası dururdu ki, bu da bərabərlik, sosial ədalət və birlik prinsiplərinə əsaslanırdı. Bu prinsiplər mərkəzi hakimiyyətin regional hakimiyyətlə mütamadi işləməsi və iqtisadi regionlar üzrə inkişafın əldə edilməsini tələb edirdi. Kommunizmin süquta yetməsi ilə şəhər və kənd əhalisinin inkişafındakı fərqlər ilbəil artmağa başlamışdır. Bu fərqlərin aradan qaldırılması məqsədi ilə bir çox keçmiş kommunist dövlətləri regional inkişafla bağlı Dövlət Proqramlarını həyata keçirməyə başladılar. Bu proqramların əsas məqsədi sosial, iqtisadi və siyasi problemləri aradan qaldırmaq və bu istiqamətdə mövcud problemlərə qarşı ön tədbirlər görməkdən ibarət idi. Regional inkişafla bağlı Dövlət Proqramları əsasən sosial ədalətsizliyə qarşı, iqtisadi və sosial-siyasi stabilliyin əldə olunması üçün istifadə olunurdu. Onu da qeyd etmək lazımdır ki, Şərqi Avropa və Sovet ölkələri bu proqramlara münasibətlərində bir-birlərindən fərqlənirdilər. Bu fərqlər əsasən onların kapitalist iqtisadiyyatına olan münasibətlərinin əsasında formalaşırdı. Keçid prosesi Şərgi Avropa dövlətlərində daha intensiv həyata keçirilirdi. Burada iqtisadiyyatın liberallaşdırılması iqtisadi islahatların əsasını təşkil edirdi. MDB ölkələrində isə azad bazar iqtisadiyyatının bərqərar olması prosesi daha yavaş sürətdə gedirdi [25]. MDB dövlətləri islahatlar planında iqtisadi inkişafda dövlətin rolunu uzun müddət vacib sayırdılar. Özbəkistan, Rusiya, Qazaxıstan və Belarus regional inkişafla bağlı yaxşı tərtib olunmuş Dövlət Proqramlarına malik idilər. Onu da qeyd etmək vacibdir ki, MDB ölkələrinin bir çoxunda aqrar sahələr çoxluq təşkil

edir və bu sahələrə diqqətin yetirilməsi vacibdir [8]. Şərqi Avropa dövlətləri ilə MDB dövlətləri arasında regional inkişafla bağlı ən böyük fərq onların bu istiqamətdə yürütdükləri siyasi iqtisadiyyatla bağlıdır. Belə ki, Şərqi Avropa dövlətləri əsasən özəl sektor vasitəsi ilə iqtisadi inkişafa nail olmaq istədiyi halda MDB dövlətləri daha çox dövlət dəstəyi sayəsində buna nail olmağı özlərinə məqsəd qoymuşdular. Bu fərqli yanaşmalar elmi diskussiyalarda müzakirə mövzusu olsa da, keçmiş kommunist dövlətlərinin regional inkişafa verdikləri önəmi heç də azaltmırdı.

Yoxsulluq çox çətin, mürəkkəb iqtisadi, sosial və siyasi fenomendir. Bu problemin həlli əsrlər boyu bəşəriyyətin başlıca fikir verdiyi sosial məsələdir. Yoxsulluqla bağlı Dövlət Proqramları keçid iqtisadiyyatı zamanı istifadə olunmuş və iqtisadi təhlil zamanı mühüm əhəmiyyət kəsb etmişdir. Ümumdaxili məhsulun artım templəri siyasi rejim dəyişikliyi ilə birlikdə aşağı düşdü. Ümumdaxili məhsulun mənfi artım templəri bir neçə il ərzində davam etdi. İqtisadi artımın mənfi olması yoxsulluğun kəskin surətdə artımına gətirib çıxardı. İqtisadi çətinliklər əmək bazarına da mənfi təsir göstərdi. Belə ki, bir çox firmaların bağlanması ilə iş yerlərinin sayı azaldı və yeni iş yerlərinin açılması prosesi yalnız xeyli müddətdən sonra baş tutdu. Bununla yanaşı, ölkə əhalisinin yetərincə maliyyə ehtiyatları olmadığından və milli valyutalarının dəyərlərini sürətli itirmələri ilə bərabər iqtisadi çətinliklər dövrü, demək olar ki, əhalinin bütün təbəqələrinə siraət etmişdi. Bu çətinliklər əhali arasında sosial problemlərin yaranmasına səbəb oldu. Nəticə etibarilə baş verən iqtisadi hadisələr keçmiş kommunist dövlətlərində mövcud olan yoxsulluq problemini qabartmış və həmin ölkələrdə yoxsulluq səviyyələri kəskin surətdə artmışdır. 90-cı illərin əvvələrindən etibarən demək olar ki, mövcud olmayan yoxsulluq sürətli şəkildə artmağa başladı [27]. İlk əvvəl ölkə hökumətləri gedən bu proseslərə tamaşaçı qismində baxırdılar. Hakimiyyətlərin bu proseslərin qarşısını ala bilmək iqtidarında olmamalarının əsasında bir neçə amil dururdu ki, bunlar əsasən siyasi hərc-mərclik, iqtisadi dəyişiklik nəticəsində yaranan təbii çətinliklər, çox dövlətlərdə mövcud olan siyasi konfliktlər və müharibələr və ölkə ərazisində mafioz strukturların vüsət alması nəticəsində baş verirdi. Bu proseslərin nəticəsində həmin ölkələrin əhalisi bir çox vaxt ABŞ və Qərbi Avropa dövlətlərinə miqrasiya edərək öz problemlərini həll etməyə çalışırdılar [22, 80-82]. Tezliklə ölkə hakimiyyətləri bu problemə yaxından nəzarət etməyə başladılar və bu problemin həlli üçün müxtəlif struktur və proqramlar yaratdılar. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı yoxsulluqdan əziyyət çəkən qrupların təyin edilməsi prosesində və onların problemlərinin həlli yolunun tapılmasında aktiv şəkildə istifadə edilmişdir. Bolqarıstan, Polşa, Estoniya və Ukrayna Birləşmiş Millətlərin bu proqramındakı mütəxəssislərindən istifadə edərək ölkə ərazisində sosial rifahı yaxından təhlil etmişlər [21]. Digər dövlətlər də yoxsulluqla mübarizə məqsədilə Dövlət Proqramları tərtib etmişlər. Məsələn, Qırğızıstanda Yoxsulluğun Aradan Qaldırılması Proqramı istifadə olunduğu halda Qazaxıstan Sağlam Həyatın Təşviqi Milli Proqramını

yoxsulluq problemini aradan qaldırmaq məqsədilə həyata keçirirdi. Ümumilikdə deyə bilərik ki, Şərqi Avropa və Keçmiş MDB ölkələri sosial rifah probleminə əvvəlcə tamaşaçı kimi baxsalar da, sonralar onlar bu problemi həll etmiş və müvəffəqiyyətə nail olmuşlar. 21-ci əsrin əvvəllərindən etibarən yoxsulluq bu ölkələrdə kəskin surətdə azalmış və dövlətlər bu problemə nəzarət etməyi tam şəkildə həyata keçirə bilmişlər. Əsrin ilk onilliyində yoxsulluq üzrə nəzərə çarpacaq iqtisadi meyllər müşahidə edilmişdir.

Qədim atalar sözü "Bir əsr yaşa, bir əsr oxu"-nun vacibliyi bəşər tarixinin bütün mərhələlərində özünü biruzə vermişdi. İnsan həyatı inkişaf etdikçə, onun şüuru, zəkası və ağlı artmış və hər keçən zamanla insaniyyət öz idrakını daha da zənginləşdirmək məqsədilə elmə, təhsilə və biliyə yönəlmişdir. Elə bu baxımdan da, iqtisadi inkişafla bağlı sonuncu istiqamətin mövcudluğu təsadüfi deyildir. İqtisadi inkişafla bağlı Dövlət proqramlarının sonuncu əsas istiqamətlərindən biri təhsil və təhsil islahatlarına həsr edilmişdir. Elm və təhsil istənilən cəmiyyətin onurğasını təşkil edir. Təbii ehtiyatlarının qıtlığı, lakin yüksək iqtisadi inkişafı ilə seçilən dövlətlərin sayı yetərincədir. Bu dövlətlərin sürətli inkişaflarının əsasında elm, təhsil, innovasiyalar və texnoloji inkişaf durur. 20-ci əsr elmin, təhsilin və texnoloji inkişafın cəmiyyətdəki rolunu daha da qabartmış və öncül mövqeylərdən birinə çıxartmışdır. Mak Artur və Saks texnologiyanın inkişafdakı rolu ilə bağlı müxtəlif mərhələlərin olduğunu göstərmişlər [24]. Kommunist cəmiyyətləri elmə və təhsilə hər zaman böyük önəm vermişdilər. Onların təhsil sistemləri kapitalist ölkələrindəki mövcud sistemlərdən bir çox zaman daha üstün hesab edilmişdir. Bir çox yüksək əmək qabiliyyətli işçi qüvvəsi Qərbi Avropa və ABŞ-a miqrasiya etmiş və oradakı kapitalist cəmiyyətlərinə uyğun iş yerlərində yüksək maaşlı işlərlə təmin edilmişdilər. Kommunizmin süqutu ilə Şərqi Avropa və MDB dövlətlərinin təhsil sistemlərində problemlər və çətinliklər yaranmağa başladı. Yüksək əmək qabiliyyətli işçi qüvvəsinin miqrasiyası həmin ölkələrin əmək bazarını böyük problemlərlə üzləşdirmişdilər. Bunun bariz nümunəsi Türkmənistan və Qazaxıstanın neft və qaz sektorları ola bilər. Belə ki, bu dövlətlərin hökumətləri yüksəkixtisaslı kadrların olmamalarını neft və qaz sektorlarının inkişafında yaxından hiss etmişdilər. Bu dövlətlər həmin sektorların inkişaf etdirilməsi məqsədilə xaricdən yüksəkixtisaslı peşəkarları cəlb etmişdilər. Keçmiş kommunist dövlətlərinin təhsil sahələrindəki islahatları iki istiqamətdə xarakterizə edilə bilər. Bunlardan ilkini ölkənin təhsil sahələrinin dünya təhsil sferasına inteqrasiyasını təşkil etməkdən ibarət idi. Dünya elminə inteqrasiya bu ölkələrdə elmin və təhsilin sürətli inkişafını təmin edəcək və həmin ölkələrin alimləri üçün yeni perspektivlər açacaqdır. Təhsil islahatlarının birinci istiqaməti üzrə bir çox dövlətlər Boloniya prosesindən yaxından istifadə etmişdilər [23]. Düzdür, yenicə kapitalist iqtisadiyyatına keçmiş dövlətlərin bu platformalardan istifadə dövrləri fərqlənsə də, onların aktiv iştirakları, demək olar ki, eyni idi. Təhsil islahatlarının ikinci hissəsi əsasən MDB ölkələrində istifadə edilmişdir. Bu istiqamət ölkə gənclərinin dünyanın

aparıcı universitetlərində təhsil ala bilmələri ilə bağlı idi. Bir çox MDB ölkələrində gənclərin xaricdə təhsil almaları ilə bağlı Dövlət Proqramları tərtib edilmişdir. MDB ölkələri sırasında Azərbaycan və Qazaxıstanın bu istiqamətdə yürütdükləri siyasəti xüsusi ilə qeyd etmək lazımdır. 21-ci əsrin ilk onilliyinin ortalarından etibarən bu iki dövlətdə strukturlu və sistemli şəkildə xarici ölkələrə təhsil almaq üçün göndəriləcək gənclər haqqında Dövlət Proqramları tərtib edilmişdir [3, 11]. Bu Dövlət Proqramlarının əsas amalı ölkə ərazisində yüksəkixtisaslı və peşəkar kadrları hazırlamaq və ölkə iqtisadiyyatını yeni inkişaf mərhələsinə gətirməkdən ibarət idi. Eyni zamanda, bu proqramlar əmək bazarına yeni nəfəs verərək burada müsbətyönlü dinamikanı yaradacaqdı. Bu proqramların nəticələri artıq öz bəhrəsini verir. Təhsil proqramları ilə xaricə oxumağa gedən gənclər artıq öz ölkələrinə geri qayıtmağa başlamış və burada əmək bazarında yüksəkixtisaslı kadrların rolunu artırmışlar. Bu gənclər müasir tipli iş yerlərində çalışırlar.

Ümumilikdə, qeyd edə bilərik ki, keçmiş kommunist dövlətləri siyasi sistem dəyişikliyinin nəticəsində yaranan problemləri həll etmək üçün Dövlət Proqramlarından istifadə etmişlər. Onların bu proqramlardan istifadəsi fərqlənsə də, bu proqramlara verdikləri önəm oxşar idi. Bəzi keçid dövlətləri xarici investisiyaların cəlbinə dair Dövlət Proqramlarına üstünlük verirdilər, digərləri regionla inkişafa yönəldikləri halda, başqaları yoxsulluqla mübarizədə vacib addımlar atırdılar. Təhsil sahəsindəki islahatlar Şərqi Avropa dövlətlərinin hamısında mövcud idi. İqtisadi inkişafa nail olmaq məqsədilə keçmiş kommunist dövlətləri yuxarıda göstərilən 4 kateqoriya üzrə Dövlət Proqramlarından bilavasitə istifadə etmişdirlər. Bu proqramlar əsasən sosial rifah, ölkədəki resursların düzgün paylanması, bərabəryönlü inkişaf və s. bu kimi sosial yönümlü iqtisadi mahiyyət daşıyırdı. Yuxarıda apardığımız təhlil nəticəsində qeyd edə bilərik ki, bu proqramlar iqtisadi inkişafda mühüm rola malik idilər. Əgər 1990-cı illərin əvvəllərində bu dövlətlərin iqtisadiyyatları mühüm problemlərlə üzləşmiş və ümümdaxili məhsulun artım templəri kəskin surətdə azalırdısa, 90-cı illərin ortalarından etibarən bu ölkələrin iqtisadiyyatında mühüm irəliləyişlər olmuş, yeni iqtisadi perspektivlər açılmış və gələcəkdə sağlam və davamlı iqtisadi nəticələr əldə etmək üçün münbit şərait yaradılmışdır. Yuxarıda qeyd etdiyimiz Dövlət Proqramları ümumilikdə iqtisadiyyatın, siyasi stabilliyin və sosial vəziyyətin yaxşılaşmasında mühüm əhəmiyyətə malik olmuşlar. Yəni, bu proqramlar olmasaydı, həmin dövlətlərin iqtisadi inkişaflarında mühüm çətinliklər yaşanacaq və onların hal-hazırda malik olduqları iqtisadi inkişafın səviyyəsi eyni olmayacaqdı. Bu proqramlar iqtisadiyyatın kompleks şəklində inkişafına təkan verərək, onun davamlı müsbət inkişafı üçün şərait yaratmışdır.

Qeyd etmək vacibdir ki, hər 4 istiqamət üzrə Azərbaycanda dövlət qayğısı müşahidə edilmiş və burada fəaliyyət yüksək səviyyədə aparılmışdır. Azərbaycanda yoxsulluq qarşı Dövlət Proqramı [7], regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları [1, 2], xarici investisiyaların cəlbində

dövlətin aktiv iştirakı [5, 13, 15, 20] və təhsil və elmin sürətli inkişafına dəstək vermək məqsədilə gənclərin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı [3] həyata keçirilmişdir. Keçmiş kommunist ölkələrinin timsalında görə bilərik ki, Azərbaycan hərtərəfli regional inkişafla bağlı sosial-iqtisadi siyasət yeritmişdir. Digər dünya dövlətlərindən fərqli olaraq, məhz MDB və Şərqi Avropa dövlətlərinin təcrübəsinin öyrənilməsi təsadüfi deyil və qanunauyğundur. Azərbaycan özü də bu kateqoriyalı dövlətlərə daxildir. Bununla yanaşı bu dövlətlərin keçdiyi siyasi və iqtisadi yol digər dünya dövlətlərinin təcrübəsindən çoxda fərqlənmir. Yəni, ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı nəzərdə tutulan bütün mühüm proseslər bu ölkələrdə həyata keçirilmiş və onların təcrübələri rəngarənglik baxımından çox səmərəlidir. İnkişaf etmiş kapitalist dövlətləri ilə müqayisə arzuolunmaz subyektivlik prizmasını yaradacaqdır ki, bu da qəti surətdə məqsədəuyğun deyildir. Onu da qeyd etmək vacibdir ki, investisiyaların cəlbi, iqtisadiyyatın diversifikasiyası, yoxsulluğun azaldılması, regional inkişaf və əhalinin sosial rifahının yaxşılaşdırılması demək olar ki, bütün dünya dövlətlərində geniş şəkildə istifadə olunur və gələcək perspektivdə də bu istiqamətlər üzrə fəaliyyətin daha intensiv şəkildə davam etdirilməsi həmin dövlətlərin daxili siyasətidir, həm də ki, BMT-nin bir çox qurumları tərəfindən yürüdülən dünya əhalisinin idarəolunma siyasətində mühüm rola malikdir. Yəni bu sahələr üzrə təcrübənin öyrənilməsi uzun müddət intensiv şəkildə davam etdiriləcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında. Bakı şəhəri, 14 aprel 2009-cu il.
2. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında. Bakı şəhəri, 11 fevral 2004-cü il.
3. 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 saylı Sərəncamı.
4. Əfəndiyev V. Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı, БДУ, 2002, 237 s.
5. Həsənov N. İnvestisiya strategiyasının formalaşması. Bakı: Elm, 2000, 350 s.
6. Nuriyev Ə. Regional siyasət və idarəetmə. Bakı: Elm, 2004, 348 s.
7. Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı 2003-2005-ci illər. Azərbaycan Republikası İqtisadi İnkişaf Nazirliyi. Bakı, 2003.
8. Аграрная экономика: Учебник. 2-е изд., перераб. и доп. / Под ред. М.Н.Малыша. СПб: “Лан”, 2002, 688 с.
9. Васильев В. Государственное регулирование национальной экономики: Учеб. пособие. Москва: УНЦДО, 2002, 104 с.
10. Гапоненко А. Стратегия социально-экономического развития: стран, регионов, городов: Учебное пособие. Москва: РАТС, 2001, 224 с.
11. Указ Президента республики Казахстан об утверждении Государственной программы развития образования Республики Казахстан на 2011-2020 годы. Астана, Акорда, от 7 декабря 2010 года, № 1118.

12. Alonso W. Urban and Regional Imbalances in Economic Development // Economic Development and Cultural Change. October 1968, v. 17, No. 1, pp. 1-14
13. Azerbaijani Government. Information for Investors: Azerbaijan. Azerbaijan 1995, 18 p.
14. Batten J., Kearney C. Emerging European Financial Markets: Independence and Integration Post-Enlargement // International Finance Review, 2006, vol.6, pp. 460-472
15. Bayulgen O. Facing the Dilemma of Global Capitalism: The Case of Azerbaijan // Central Asian Survey. 2003, v. 22, No. 2/3, pp. 209-220
16. Berg A., Borensztein E., Sahay R., Zettelmeyer J. The evolution of Output in Transition Economies: Explaining the Differences // IMF Working Paper. Conference Paper. The Nobel Symposium in Economics – The Economics of Transition. Stockholm, September 1999, May 1999, 99/73
17. Brada J. Interpreting the Soviet subsidization of Eastern Europe // International Organization. Autumn 1988, v. 42, No. 4, pp. 639-658
18. Carstensen K., Toubal F. Foreign Direct Investment in Central and Eastern European countries: a dynamic Panel Analysis // Journal of Comparative Economics. March 2004, v. 32, Issue 1, pp. 3-22.
19. Chenery H. The Role of Industrialization in Development Programs // The American Economic Review, Papers and Proceedings of the 67 th Annual Meeting of the American Economic Association. May 1955, v. 45, No. 2, pp. 40-57
20. Eyyubov K. Factors determining the Differences in FDI inflows into Azerbaijan's and Russia's Oil Sectors After Independence // The Caucasus and Globalization. 2011, v. 5, Issue 3-4, pp. 30-43
21. Gorniak J. Poverty in Transition: Lesson from Eastern Europe and Central Asia // Chapter 6: Choices for the poor, UN. 2001, pp. 146-172
22. Jacobson D. eds. The Immigration Reader: America in a Multidisciplinary Perspective. Malden: Blackwell, 1998, 449 p.
23. Kwiek M. The Emergent European Educational Policies under Scrutiny: the Bologna Process from a Central European perspective // European Educational Research Journal. 2004, v. 3, No. 4, pp. 759-776
24. Mcarthur J., Sachs J. The Growth Competitiveness Index: Measuring Technological Advancement and the Stages of Development. Harvard, 2001, pp. 28-51.
25. Mickiewicz T. Economic Transition in Central Europe and the Commonwealth of Independent States. Palgrave Macmilan, 2005, 214 p.
26. Pomfret R. Kazakhstan’s Economy since Independence: Does the Oil Boom Offer a Second Chance for Sustainable Development? // Europe-Asia Studies. 2005, v. 57, Issue 6, pp. 859-876
27. United Nations Economic Commission for Europe (UNECE). 2008 UNECE statistical Database, http://w3.unece.org/pxweb/DATABASE/STAT/20-ME/4-MEPI/4-MEPI.asp.
28. World Bank Database. April 2008 World Development Database Indicators, http://web.worldbank.org/WBSITE/EXTERNAL/DATASTATISTICS/0,,contentMDK:20535285~menuPK:1192694~pagePK:64133150~piPK:64133175~theSitePK:239419,00.html

## ПЕРСПЕКТИВНЫЕ ВОЗМОЖНОСТИ И СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ РЕГИОНОВ СТРАН МИРА

**К.Ю.ЭЙЮБОВ**

**РЕЗЮМЕ**

В данной статье анализируется роль Государственных Программ в социально-экономическом развитии стран Восточной Европы и Содружества Независимых Государств. Также, детально анализируются влияние на экономическое развитие иностранных инвестиций, регионального развития, государственных программ по устранению нищеты и развитию образования. Как результат, эти программы ускорили переход бывших коммунистических стран к капитализму и создали благоприятные условия для их экономического развития. Была выявлена большая разница в экономическом состоянии исследуемых государств в начале и конце 90-ых годов.

**Ключевые слова:** Государственные Программы, экономическое развитие, экономика СНГ, макроэкономическая стабилизация, экономика Восточной Европы, безработица, образовательные программы, региональное развитие

## PERSPECTIVE OPPORTUNITIES AND COMPARATIVE ANALYSIS OF ECONOMIC DEVELOPMENT OF THE REGIONS OF WORLD COUNTRIES

**K.Y.EYYUBOV**

**SUMMARY**

This article examines the role of state programs applied in Eastern European and Commonwealth of Independent States on economic development. The effects of foreign investments, regional development, the state programs of tackling poverty and development of education on economic development are analyzed in details. As a result, these programs have given an impulse to the transition process of the former communist states and opened up prospects for the economic development. The significant differences between the economic outcomes of the early and late 90s are revealed in the paper.

**Key words:** State Programs, economic development, CIS economy, macroeconomic stability, Eastern European economy, poverty, educational programs, regional development